iki sahil
www.ikisahil.az / www.ikisahil.tv

# ORTAQ KEÇMİŞDƏN ORTAQ GƏLƏCƏYƏ

## ÇARİZMİN İŞĞALÇILIQ SİYASƏTİ ÜMUMTÜRK TARİXİ KONTEKSTİNDƏ

⇨ Əvvəli ötən saylarda

## Qızıl Orda və ondan törəmə tatar xanlıqları

*(tarixi-etnoqrafik oçerklər)*

### KAZAN XANLIĞI

Qasım elitası nümayəndələrinin ruslarla bu qədər yaxınlaşmalarını, doğmalarından üz çevirib onlarla qaynayıb-qarışmalarını necə izah etmək olar - sualına cavab olaraq yəqin ilk növbədə onu xatırlamalıyıq ki, məhz Moskvanın lütfü sayəsində bu əldəqayırma xanlıq ana dövlətindən- Kazan xanlığından az qala 200 il çox- XVII əsrin sonlarına qədər "yaşamış", Qasım xanlığına xərac ödənilməsinə dair Uluğ Məhəmmədlə imzalanmış müqavilə isə 1553-cü ilədək qüvvədə qalmışdır. Amma deyilənlər Qasım xanlığının ayrıcalığını açıqlamaq üçün kafi deyil. Ruslarla Qasım tatarları arasında dil, din, həyat tərzi, məişət, adət-ənənə parametrləri üzrə zərrəcə uyğunluq yox idi. Müşahidələr göstərir ki, siyasi amillər belə bu fundamental uyğunsuzluğu əvəzləmək, əritmək, yaddan çıxarmaq gücündə deyil. Dünyaya tamamilə başqa qütblərdən, başqa rakurslardan baxan iki qövmün bu dərəcədə yaxınlaşması və siyasi cəhətdən belə asanlıqla qovuşub az qala eyniləşməsi, adətən, xeyli vaxt və zəhmət tələb edir, həm də müxtəliflikdən doğan labüd ekssesler bahasına başa gəlir. Bu mənada Qasım xanlarının yerli xalqı yeni siyasi situasiyaya alışdırmaq, yadlarla birgəyaşayışa təşviq etmək, yabançı mədəni şəraitə uyğunlaşdırmaq üçün böyük əziyyətlərə qatlaşdıqları öz-özlüyündə aydın məsələdir. Yalnız öz xanının, yaxud oba və ya boy bəyinin hakimiyyətinə boyun əyməyə, onların əmrlərinə qeyd-şərtsiz itaət göstərməyə adət etmiş sadə xalqı başa düşmək çətin deyil. İş burasındadır ki, bütün müsəlman dünyasında olduğu kimi, Qızıl Orda regionunda da kütləvi siyasi dünyagörüş "dinü dövlət" (din və dövlət) düsturu ilə şərtlənir, iki imperativ amilin- dinin və dövlətin iç-içə, vahis bütöv şəklində yaşaması prinsipinə söykənirdi. Din- aydındır ki, İslamdır. Dövlət deyəndə isə yerli müsəlmanlar hər şeydən əvvəl öz xanlarının hakimiyyəti altında yaşamağı başa düşür, dövlət anlayışını sadələşdirilmiş şəkildə məhz bu tipli hakimiyyətə müncər edirdilər. Bu hesabla, Qasım xanlığında hökm sürən kütləvi rəyə əsasən, burada "dini dövlət" prinsipi gözlənilirdi: müsəlman əhali öz əqidəsində qalır, dini vacibətlərini yerinə yetirir, eyni zamanda, rəsmən, formal olaraq öz dövlətində, öz xanının tabeçiliyində yaşayırdı. Üstəlik dilini, törəsini də saxlayır, həyat tərzinə, yaşayışına kobud müdaxilə olunmurdu. Bu əlahiddə şərtlər daxilində istənilən insan kütləsinin zaman keçdikcə, ətraf aləmə uyğunlaşması, yad və yabançı qruplarla dinc yanaşı yaşamağı öyrənməsi sosial qanunauyğunluqlara da uyğundur. Lakin, əlbəttə ki, labüd çətinliklərin dəf olunması naminə Qasım xanları izafi problemlərlə üzləşməli, ən əsası isə hakimiyyət ambisiyalarını müəyyən çərçivədə məhdudlaşdırmalı idilər. Çingiz övladlarının müqəddəs sayılan mütləq hakimiyyəti rus voyevodaları ilə bölüşməsi Qasım xanlığına qədər görünməmişdi. Məntiqlə, gərək onları kafirə boyun əyməyə, sırf nominal "hakimiyyət"lə razılaşmağa vadar edəcək kifayət qədər ciddi və böyük bir səbəb olaydı. Nə idi bu səbəb? Söyləmək çətindir. Yalnız fərziyyə (o da çox zəif) qura bilərik.

Tarixdən dəqiq məlumdur ki, Qasım xan sülaləsinin gözü həmişə Kazan taxtında olub. Bəzi mənbələrdə bu Kazan sevdasının başlanğıc tarixi kimi 1445-ci il göstərilir. Həmin il Uluğ Məhəmmədin oğlu Mahmud, qardaşları Yaqub və Qasımı Kazandan qovaraq taxta oturmuş və nəslin budaqları arasında qəvi düşmənçiliyin əsası da o zaman qoyulmuşdu. Nəzərə alsaq ki, Ulu yurd- Volqa hövzəsi, ələlxüsus Kazan sonralar da zaman-zaman qardaş obalar, boylar, qəbilələr, xanlıqlar arasında "nifaq alması" olub, onda əsrlərcə sürən bu ixtilafın məhz Uluğ Məhəmmədin oğlanlarından başladığını arxayınlıqla fərz edə bilərik. Şübhə yoxdur ki, Kazan taxtına- ən azı, nəzəri olaraq!- Mahmudun övladları qədər Qasımın uşaqlarının da haqqı çatırdı və Qasım özü, yaxud oğlanları "ata yurdu"nda rusların dəstəyi və təzyiqi olmadan da hakimiyyət iddialarını gerçəkləşdirə bilərdilər. Kazan xanlığı onların da babalarının mülkü sayılırdı, onlar da bu mülkə iddia etməkdə özlərini haqlı bilirdilər və bu mənada Qasım xanlarının taxt iddiasında təbii olmayan heç nə yoxdur. Qəribəsi burasıdır ki, onlar sanki öz xalqlarından üz döndərmiş, köklərindən ayrılmış, Kazan taxtına rus süngüləri üzərində gəlməyi özlərinə rəva görmüş, sona qədər də bu yolla hərəkət etmişlər. Moskva knyazlığının xarici siyasətində baş verən dönüş (XVI əsrin 40-50-ci illərində Rusiyanın Şərq siyasəti, o cümlədən, Kazan xanlığına münasibətdə strateji kursu dəyişmiş, şərqə və cənuba doğru genişlənmək, Volqadan Urala, Kazandan Xəzər dənizinə qədər əraziləri istila və ilhaq etmək ideyası ön plana çıxmışdı və hərbi şuranın 1552-ci il kampaniyasının planlaşdırıldığı iclasında Qasım xanlığının başçısı kimi iştirak etmiş Şahəli bunu bilməmiş deyildi) belə onları tutduqları yoldan çəkindirməmişdir. Kazanın Rusiyaya birləşdirilməsindən sonra Qasımovda yaşayan Şahəlinin öz dəstəsi ilə ruslar tərəfdən Livon müharibəsi cəbhələrində döyüşməsi də maraqlı faktdır və ona dəlalət edir ki, Qasım xanlarının (ən azı Kazan alındıqdan sonra) artıq Moskvadan başqa istinad yeri qalmamışdır. Qızıl Ordanın digər varisləri ilə bütün körpülər artıq yandırılıb və onlar üçün geriyə yol, sadəcə, yoxdur. Sözü uzatmağa da hacət yoxdur və görünür, "Qasımov müəmması"nı istər-istəməz tərbiyə amili ilə əlaqələndirməli, bu ehtimala əsaslanmalıyıq.

### RUSLARIN KAZAN STRATEGİYASININ DƏYİŞMƏSİ, İŞĞALÇI SİYASƏTƏ KEÇİD VƏ BUNUN SƏBƏBLƏRİ

Rusiyada mərkəzdənqaçma meyilləri öz hərbi-siyasi məharəti ilə Moskva knyazlığını güclü bir dövlətə çevriməyi bacarmış III İvanın xəstəliyi dövründə üzə çıxmağa başlamışdı, onun ölümündən sonra isə sürətlənmiş, güclü boyar ailələri arasında nüfuz savaşları ölkəni başına almış, parçalanma başlamış və get-gedə dərinləşmişdi. 1533-cü ildə III Vasili vəfat edəndə onun taxtına böyük oğlu İvan keçirildi. Lakin böyük knyazın cəmi 3 yaşı vardı və dövlətin idarəçiliyi ilə 7 nüfuzlu boyardan ibarət Boyarlar Duması məşğul olurdu. Səltənət naibəsi olaraq İvanın anası Yelena isə knyazlığın birinci şəxsi sayılırdı. Yelena məşhur Qlinskilər (oxucu üçün maraqsız olmaz ki, bu nəsli Qızıl Orda xanı Mamayla əlaqələndirən tarixçilər belə bir rəvayətə əsaslanırlar ki, güya böyük xanın oğulları onun ölümündən sonra Böyük Litva knyazlığına sığınmış, üsyan qaldırıb məğlub olduqdan sonra Moskvanın təbəəliyinə keçən Mixail Qlinskiyə qədər orada yaşamışlar. Özünü Mamay xanın oğlu Mansur Kiyatın varisi hesab edən Mixail, nəslin ağsaqqalı və Yelenanın böyük əmisi idi) ailəsinə mənsub olduğundan real hakimiyyət də tezliklə bu nəslin əlində toplandı. Lakin güc və sərvət sahibi olan başqa sülalələr də hakimiyyətdən pay umurdular. Moskva sarayına təsir iqtidarında olan köklü feodal nəsillərinin başçıları çarın ölkəni idarə edə bilməməsini bəhanə gətirərək, Qlinskilərin hakimiyyətini bölüşmək üçün qüvvələrini birləşdirdilər. "Boyar idarə üsulu" Moskva siyasi hakimiyyət dairələrində hökm sürən kəskin ziddiyyətlərin ifadəsi kimi meydana çıxdı və Yelena Qlinskayanın ölümündən (1538) sonra da xeyli davam etdi. Taxtın formal sahibinin müxtəlif güc mərkəzlərindən, təsir qruplarından asılı vəziyyətə düşməsi ölkədə özbaşınalığı artırır, hakimiyyət boşluğu yaradırdı. Taxta çıxdığı gündən saray intriqaları məngənəsinə düşən gənc İvan Vasilyeviç (1533-1584, 1547-ci ildən ilk rus çarı) onu öz tərəfinə çəkməklə rəqiblərini gücdən salmağa çalışan boyarların oyuncağına çevrilmişdi. Lakin sövq-təbii ilə olsa da, vəziyyətin çətinliyini anlayır, gerçək hakimiyyəti əldən vermək istəməyən nəsil və klan başçılarını öz "mütləq iradəsi"nə tabe etdirmək üçün yollar axtarırdı.

Sözarası qeyd edək ki, İvan Vasilyeviçin 1577-ci ildə Andrey Mixayloviç Kurbskiyə yazmaq məcburiyyətində qaldığı məktublar onun gənclik illərində "seçilmiş boyarlar radası"- hökumət qrupu tərəfindən məruz qaldığı siyasi məhrumiyyətlər barədə dolğun təsəvvür yaradır. Knyaz Kurbski həmin qrupun üzvlərindən olmuşdu və onlara qarşı İvanın sonralar başladığı repressiyalardan canını qurtarmaq üçün 1564-cü ildə Litvaya, kral Sigizmund Avqusta pənah aparmış, bir müddət Livoniya ordusunda qulluq etmiş, yüksək hərbi rütbələr qazanmışdı. Vaxtilə Kazan yürüşündə də iştirak etmiş Kurbskini XVI əsrin parlaq siyasi simalarından biri kimi məşhurlaşdıran isə Litvadan çar İvana yazdığı məktubda onu Rusiya qarşısında böyük xidmətlər göstərmiş dövlət adamlarına divan tutmaqda, ölkəni uçuruma sürükləməkdə, daxili və xarici uğursuzluqlarda günahlandırması olmuşdu. Məktubun bütün Avropada (təbii ki, ilk növbədə Rusiyada) böyük əks-səda verməsi çar İvan Qroznını Kurbski ilə yazışmağa vadar etmişdi. Cavab məktublarından birində o, boyar özbaşınalığı dövrünü belə xatırlayırdı: "Siz mənim hakimiyyətimi əlinizə keçirdiniz və ölkəni istədiyiniz kimi idarə etdiniz. Sözdə mən hökmdar olsam da, əslində heç bir şeyə sahib deyildim. Mən necə müsibətlər çəkdim, sizin nə qədər haqsızlıq və tənənizə məruz qaldım". Başqa bir məktubda çar, Vasili və İvan Şuyski qardaşlarını nəzərdə tutaraq yazırdı ki, "onlar çarın taxtında oturdular". İvan Vasilyeviç "kollektiv böyük knyaz"lıq iddiasına düşmüş qeyri-qanuni hökumət qrupunun başlıca xarakterik əlamətləri üzərində məxsusi dayanırdı: "Hökmdarsız çarlığı ələ keçirəndən sonra hərc-mərclik saldılar, dövlət xəzinəsini qarət etməyə, çarın qohumlarını və çar hakimiyyəti tərəfdarlarını cəzalandırmağa başladılar" (qeyd etmək lazımdır ki, İvan Vasilyeviç özü də hakimiyyəti tam şəkildə əlinə aldıqdan sonra keçmiş əleyhdarlarına qarşı eyni amansızlıqla davranmış, ömrünün axırına qədər onları bağışlamamış, çoxunu qətl etdirmiş, sağ qalanlarını isə ölkədən pərən salmışdı).

Belə bir qarmaqarışıq şəraitdə real təhlükə ilə üzləşən IV İvan rus pravoslav kilsəsinə, şəxsən mitropolit Makarinin mərhəmətinə sığınmaqdan başqa çıxış yolu tapa bilməmişdi. Lakin bununla kilsə və din xadimlərinin təsirinə düşəcəyinin fərqinə varmamışdı. 1546-cı ilin dekabrında mitropolitin məsləhəti ilə o, dövləti idarə etmək iqtidarında olduğunu boyarlar qarşısında qəti şəkildə bəyan etdi və hakimiyyəti tam şəkildə ələ almaq üçün siyasi iradəsini ortaya qoydu. Beləliklə, Belski, Şuyski, Qlinski hökumətlərinin yerini Makarinin şəxsində yüksək rütbəli kilsə ruhaniləri aldılar. İvan Vasilyeviç "ruhani ata"nın məxsusi olaraq Novqoroddan gətirtdiyi protoirey Silvestrin qəyyumluğuna verildi və daha 6 il (1547-1553) onun rəhbərliyi altında hökm sürdü (Kurbskiyə məktublarından aydın olur ki, onun rəsmi qəyyumu keşiş Silvestr də tezliklə boyarların tərəfinə keçir. Çarın Kurbskiyə cavab məktublarında deyilir: "Əgər keşişlə sən mənə baş qaldırmasaydınız, bunların heç biri (sonrakı repressiyalar nəzərdə tutulur-N.M.) olmazdı" (məktublardan sitatlar T.Vəlixanlıya istinadən verilib). Bir çox tarixçilərin fikrincə, bu illərdə saray əyanlarından, təcrid edilən böyük knyazın yaxın əhatəsində cəmi bir nəfər mülki şəxs vardı- onun dostu, Kostroma mülkədarı Aleksey Fyodroviç Adaşev. Maraqlıdır ki, onun da mitropolitə yaxınlığı söylənilir. Biz, əlbəttə, Moskva sarayının qaranlıq künc-bucaqlarında baş vermiş fitnə-fəsadların təsviri ilə oxucunun diqqətini əsas mövzumuzdan yayındırmaq niyyətində deyilik. Lakin bir prinsipial məqamı vurğulamağa borcluyuq: IV İvan hakimiyyətinin 1542-1553-cü illər dövrünün "klerikal siyasət epoxası" adlandırılması əsassız sayılmamalıdır. Bu dövrdə Moskva dövlətinin pravoslav mahiyyət kəsb etməsi aşkar cizgilər alır, dövlətin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi ideyası orta əsrlər üçün xarakterik bir tərzdə müsəlman aləminə qarşı səlib yürüşləri ilə əlaqələndirilir, həmsərhəd "kafir torpaqlarının" ələ keçirilməsi, ilk növbədə Kazan xanlığının ortadan qaldırılması kimi əslində sırf siyasi məqsədlər kütləvi şüura dini vəzifələr kimi yeridilirdi. Beləliklə, Kazanın işğalı ölkə siyasətinin onurğa sütununa çevrilmiş ruhani sinfinin başlıca tələbinə çevrilmişdi. "Moskva- 3-cü Romadır", "Moskva- bütün pravoslav slavyanlığın dayağıdır" tipli messian ideyalar yayan ayin, moizə və müraciətlərdə Roma və Bizansdan sonra bəşəriyyət tarixində ortodoksal xristianlığın sonuncu mərkəzi, bütöv bir sivilizasiyanın yeni qalası kimi məhz Moskva elan olunurdu. Təbii ki, bununla IV İvan dünya xristianlığının dini rəhbəri ranqına yüksəldilir və onun üzərinə "müqəddəs müharibə"nin davam etdirilməsi öhdəliyi qoyulurdu. Hələ atası III Vasilinin dövründə, 1523-cü ildə o vaxtkı mitropolit Daniil tərəfindən səsləndirilmiş "böyük knyaz bütün Kazan torpaqlarına sahib olacaq,"- fikri yenidən pravoslav ruhani zümrəsinin ümumi rəyi kimi qələmə verilir və İvan Vasilyeviçin siyasi proqramına daxil edilirdi.

Lakin bu fikri rus cəmiyyətinin digər hakim təbəqələrinə də aşılamaq lazım gəlirdi. Odur ki, təbliğat işi eyni zamanda, həm də dünyəvi maraqlar müstəvisinə keçirilir, Kazanın işğalı müstəsna iqtisadi-siyasi önəm daşıyan zəruri strateji hədəf kimi qələmə verilirdi. Kimliyi indiyə qədər müəyyən edilməsə də, mitropolit Makariyə yaxınlığı şübhə doğurmayan İvan Peresvetov təxəllüslü bir "dvoryan publisisti"nin 1547-1549-cu illərdə qələmə aldığı siyasi məqalələr bu cəhətdən xüsusi maraq kəsb edir. Mətbuat tarixçilərinin qənaətincə, ilk dəfə məhz İ.Peresvetov işğal siyasətinin "məqsədəmüvafiqliyini" əsaslandırmış və Moskva Rusunun böyük sosial təbəqələrinin- hərbçilərin, ruhanilərin, mülkədarların və ticarət-sənaye kapitalı təmsilçilərinin ortaq maraqlarına cavab verdiyini "düstur"laşdırmışdı. Rus ictimai fikrində işğalçılıq siyasətinin ideoloqu kimi tanınan İ.Peresvetov İvan Vasilyeviçə ünvanladığı "Çarqradın türklər tərəfindən tutulması haqqında", "Məhmət saltan haqqında hekayət" povestlərində, habelə "Böyük ərzi-hal", "Kiçik ərzi-hal", "Konstantinin hekayəti", "Filosof və doktorların birinci və ikinci öncəgörmələri" əsərlərində İstanbul fatehi Sultan Məhmədi dünya tarixində mühüm yer tutan Avqust və Makedoniyalı İskəndərlə bir sıraya qoyur, ideal hökmdar və layiqli rəqib kimi rus çarına nümunə gətirirdi. IV İvanı "Məhmət saltan"ın siyasi xələfi olmağa, Kazan üzərinə yürüş keçirməkdə qətiyyət göstərməyə (və bununla Çarqradın-İstanbulun fəthinin əvəzini çıxmağa) səsləyən müəllif yazırdı: "Allahın köməyi ilə bütün rus torpağının böyük knyazı və ər çarı İvan Vasilyeviçin orduya müdrik rəhbərliyi sayəsində Kazan çarlığı fəth ediləcək və xristianlaşdırılacaq". Peresvetov Moskva böyük knyazına bu böyük məqsəd uğrunda ölkədə qanun-qaydanı və orduda nizam-intizamı bərpa etməyi, ədalətli olmağı, voyevoda və döyüşçülərə qayğı göstərməyi məsləhət görür və Kazanın işğal edilməsinin onların maraqları ilə uzlaşmasını qələbə üçün vacib amil kimi ön plana çıxarırdı.

Kazan üzərinə yürüş ərəfəsində Moskva knyazlığının sosial-iqtisadi ehtiyaclarını dərindən araşdıran M.N. Pokrovski işğal ideyasının rus cəmiyyətində böyük cazibədarlıq qazanmasının səbəbləri üzərində daha ətraflı dayanır: "O dövrdə kasıb torpaq sahibləri öz təsərrüfatlarını genişləndirmək üçün yalnız bir maliyyə mənbəyinə ümid edə bilərdilər ki, bu da xəzinədən alınan ödənclər idi. Ödənc isə hərbi yürüşlərdə iştirak etmək müqabilində verilirdi. Odur ki, eyni zamanda, hərbi dəstə başçıları olan torpaq sahibləri müharibə siyasətinin qızğın tərəfdarı kimi çıxış edirdilər". Onların niyyəti bir yandan talançılıq, qənimətçilik yolu ilə var-dövlət, o biri yandan işğal olunacaq ərazilərdə yeni torpaqlar əldə etmək idi. Mülkədarların müharibə istəkləri ticarət kapitalının da maraqları ilə üst-üstə düşürdü. İri rus tacirləri Şərq ölkələri ilə ticarətin əsas yollarından sayılan və Ə.Dəmirin təbiri ilə söyləsək, "min il ərzində "türk nəhri" adlanan" Volqa çayına çıxmağa, beləliklə də gəlirli beynəlxalq dəniz ticarəti şəbəkəsinə daxil olmağa çoxdan can atırdılar". Daim Kazan bazarı ilə sıx əlaqədə olmuş rus tacirləri xanlığın ticarət üçün əhəmiyyətini yaxşı bilir və bu nəhəng beynəlxalq bazarın ələ keçirilməsinə ciddi maraq göstərirdilər.

XV əsrin sonlarına qədər bölgənin ən böyük yarmarkası Kazanda keçirilmişdi. Hər il iyunun 24-də açılan və bir neçə həftə davam edən Kazan yarmarkasına Qərbi Avropadan Türküstana qədər dünyanın bütün guşələrindən dövrün ən yüksək texnologiyaları əsasında istehsal olunan məhsullar- qızıl və gümüşlə işlənən pambıq və ipək parçalar, nadir zinət əşyaları, qiymətli kürklər gətirilir və qısa müddətdə satılırdı. Səyyah və diplomatların qeydlərində Aşağı Volqaboyu və Şimali Qafqaz yolu ilə Kazan istiqamətində hərəkət edən karvanlardan, onların buraya gətirdikləri mallardan geniş söz açılır, yəhər və yüyənlərin, geyim və dəri əşyalarının karvan yolları ilə açıq, silah və dəmirin isə ya gizli, ya da xüsusi rüsxətlə daşındığı vurğulanırdı. Yaxın-uzaq ölkələrdən gəlmiş tacirlərlə birlikdə Kazan yarmarkasının daimi iştirakçıları arasında ruslar mühüm yer tuturdu. Onların yarmarkada həmişə xüsusi fəallıqları ilə seçildiklərini mənbələr də qeydə alır. Lakin 1505-ci və 1523-cü illərdə rus tacirlərinin burada hücuma məruz qalmasından qəzəblənən III Vasilini xüsusi fərmanla onların Kazan yarmarkasına getməsini qadağan etmişdi. Daha sonra isə Kazandan bir qədər yuxarıda, Makaryev monastrı yaxınlığında yeni bir yarmarkanın əsası qoyulmuş, əslində Kazan yarmarkasına alternativ bir ticarət mərkəzi yaradılmışdı (müsəlman tatar və türküstanlılar arasında "Məkərçə"/"Məkərə" adı ilə məşhur olan Makaryev yarmarkası sonralar Nijni Novqoroda köçürülmüşdü). Lakin Kazanın ticari əhəmiyyəti yalnız yarmarka ilə ölçülmürdü. 1476-cı ildə Volqaboyunda olmuş italyan diplomatı İosafat Barbaro yazırdı: "Ticarət mərkəzi olan bu şəhərdən Moskvaya, Polşaya, Prussiyaya və Flandriyaya böyük həcmdə xəz məmulatları daşınır. Xəzləri şimaldan və şimal-şərqdən, Dzeqatay (Çağatay?-N.M.) vilayətlərindən və Mordovadan alırlar". Barbaro qeyd etməsə belə, Kazan xanlığının öz ərazilərində də çox sayda qiymətli xəz məmulatlarının hazırlandığı məlumdur. Bundan əlavə, Kazandan, həmçinin Moskva və başqa knyazlıqlara balıq, kətan parça, dəri malları, zərgərlik məmulatları, habelə Volqa vasitəsi ilə Şərq ölkələrindən gətirilən məhsullar- ədviyyat, mirvari, qızılla işlənmiş ipək parçalar, ətriyyat, quru meyvələr, şərab və s. daşınıb aparıldığı sənədlərlə təsdiqini tapır. Avstriya elçisi S.Gerbenşteynin yazdığına görə, duz almaq üçün Moskvadan Kazan və Həştərxana gələn gəmilərin ardı-arası kəsilmirdi.

Beləliklə, Kazan xanlığının təbii sərvətləri və beynəlxalq idxal-ixrac əməliyyatları üçün əlverişli coğrafi mövqeyi Moskva knyazlığının işğalçılıq siyasətini stimullaşdıran əsas şirnikləşdirici amillərdən olub, əhalinin müxtəlif təbəqələrini qarşıdakı hərbi əməliyyatlarda fəal iştirak etməyə həvəsləndirirdi. Rus cəmiyyətinin başlıca güc mərkəzləri və təsir dairələri bərəkətli Volqaboyu ərazilərinin ilhaqı ideyası ətrafında birləşmiş və səfərbər olunmuşdu.

N.MUSTAFA

⇨ Davamı növbəti sayda